**Xalq qəzeti.-**2023.-31 avqust.-№186.-S.1,8.

# Bakının gecəsi gündüzə dönür

## Son 5 ildə belə küçələrin sayı 2 min 466-ya çatdırılıb

**Vaqif Bayramov,**
**Mirbağır Yaqubzadə**

***Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə Bakı və ətraf yaşayış sahələrinin sosial-iqtisadi inkişafı daim diqqət mərkəzində saxlanılıb, paytaxt və qəsəbələrin abadlaşması, müasirləşməsi istiqamətində mühüm layihələr həyata keçirilib. Nəticədə, Bakının adı daim dünyanın ən gözəl şəhərləri sırasında bir az da möhkəmlənib.***

Görülən işlər sırasında paytaxtın küçə və prospektlərinin, eləcə də Bakıətrafı qəsəbələrdə küçələrin işıqlandırılması xüsusi yer tutub. Bakı Şəhər İcra Hakimiyyətindən aldığımız məlumata əsasən, əgər 2018-ci ildə şəhər üzrə işıqlandırılan küçələrin sayı 1216 idisə, 5 il ərzində bu rəqəm artaraq 2 min 466 olub. Təkcə keçən ilin sonundan başlanan küçə işıqlandırılması tədbirləri çərçivəsində nəzərdə tutulan yeni layihəyə əsasən ilk yarım ildə 548 küçədən 320-də işlər başa çatdırılaraq istismara qəbul edilib. Yeni çəkilən küçə işıqlandırılması ilə paralel şəkildə istismar müddəti başa çatan mövcud 82 küçənin işıqlandırma xətləri və elektrik dirəkləri müasir sistemlərlə əvəzlənib. Görülən işlər mərkəzlə yanaşı, qəsəbələri də əhatə edib.

Yeni quraşdırılan işıq dirəkləri qənaət baxımından əvvəlkilərdən seçilən led lampalarla təchiz olunub. Bundan əlavə, bu lampaların istifadəsi uzun müddət üçün nəzərdə tutulub. Bununla bərabər, işıq dirəkləri vahid idarəetmə sisteminə qoşulub.

Küçələrin işıqlandırılmasında xüsusi pay sahibi olan Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyindəki “Bakı Şəhər İşığı” Elektrik Şəbəkə Müəssisəsinin fəaliyyət sferasına paytaxtın inzibati ərazisində yerləşən bir çox binaların fasadlarının, parkların, xiyabanların, küçə, prospekt, tunel və körpülərin gecə işıqlandırılması, balansında olan işıqlandırma sistemlərinə texniki xidmət göstərilməsi daxildir. Eyni zamanda, müəssisənin əməkdaşları tərəfindən texniki xidmətlə yanaşı, plafon lampalarının dəyişdirilməsi, kabel xətlərində və enerji paylayıcı qurğularda baş verən nasazlıqların aradan qaldırılması, işıq dirəklərinin yuyulması, rənglənməsi, avtoqəzalar nəticəsində yararsız hala düşmüş işıq dirəklərinin bərpası kimi işlər həyata keçirilir.

Bəs, “Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı”nın icrası sahəsində bu müəssisə tərəfindən hansı işlər görülüb? “Bakı Şəhər İşığı”ndan sualımıza cavab olaraq bildirdilər ki, cari ilin birinci yarısında paytaxtın Yasamal rayonunun Mətbuat, Mikayıl Müşfiq və Tibilisi prospektlərində, Xətai rayonunun Cavanşir və Nərimanov rayonunun Əhməd Rəcəbli küçələrindəki köhnə işıqlandırma sistemində təmir-bərpa işləri aparılıb. Artıq sözügedən ərazilər ən müasir işıqlandırma sistemi ilə təchiz edilib. Bundan əlavə, Yasamal və Nəsimi rayonlarının ərazisindən keçən A.Salamzadə küçəsindəki işıq sistemi tamamilə yenidən qurulub. İlin ötən dövründə şəhid ailələrinin yaşadıqları küçələrin işıqlandırılması istiqamətində də zəruri tədbirlər həyata keçirilib, 10 küçədə işıqlandırma sistemi yaradılıb.

Nizami rayonu sakinlərinin istirahət vaxtını səmərəli keçirmələri üçün R.Rüstəmov küçəsində yerləşən parkda müəssisə yeni dirəklər quraşdıraraq işıqlanma təmin edilib. Bildirildi ki, cari ilin 6 ayı ərzində avtoqəza nəticəsində və küləyin təsirindən aşaraq sıradan çıxmış 72 ədəd işıq dirəyi də yerinə bərpa olunub.

Yanvar–iyun aylarında, paytaxtın 114 küçəsində işıqlandırma sistemini elektrik enerjisi ilə təchiz edən sıradan çıxmış elektrik kabel xətləri demontaj olunaraq yeniləri ilə əvəzlənib ki, bu da gələcəkdə qəzaların baş verməsinin qarşısını almağa imkan yaradacaq. Eyni zamanda, dirəklərin istismar müddətini artırmaq və korroziyadan mühafizə etmək məqsədilə 417 ədəd işıq dirəyində əsaslı təmir işləri aparılaraq yeni boya ilə rənglənib.

Hesabat dövründə Heydər məscidinin, Xarici İşlər Nazirliyinin inzibati binasının, Ali Məhkəmənin, Heydər Əliyev və Atatürk prospekti boyunca yerləşən binaların üzərində quraşdırılmış köhnə fasad işıqları yeniləri ilə əvəzlənərək işıqlanma təmin edilib. İdarədən onu da bildirdilər ki, hazırda paytaxtın 28 işıqlandırılmayan küçəsində yeni işıqlandırma sisteminin quraşdırılması işləri davam etdirilir.

Göründüyü kimi, paytaxt və ətraf yaşayış məntəqələrində işıqlandırılma məsələsi ilə əlaqədar davamlı tədbirlər həyata keçirilir. Lakin bu, Bakının mərkəzindən kənar ərazilərdə o qədər də diqqət çəkmir, bəzi küçə və magistralların axşam və gecə saatlarında zülmətə qərq olması müşahidə olunur.

Bu məsələ ilə bağlı mətbuatda tez-tez yazılar verilir, əsasən, paytaxtətrafı yaşayış sahələrinin bir sıra küçələrinin işıqlandırılmasında problemin olduğu gündəmə gətirilir. Bildirilir ki, bəzi paytaxtətrafı yollarda işıqlandırma ya zəifdir, ya da, ümumiyyətlə, yoxdur. Belə hallar isə istər təhlükəsizliyin, istərsə də əhalinin rahatlığının təmin olunmaması baxımından ciddi narahatlıq yaradır.

Yeri gəlmişkən, 2018-ci il dekabrın 28-də yol hərəkətinin təhlükəsizliyinə dair Dövlət Proqramı qəbul olunub. 2019-2023-cü illəri əhatə edən bu proqramın 7 – 7.2 bəndində avtomobil yollarının işıqlandırılması məsələsinə toxunulub. Orada konkret olaraq göstərilib ki, avtomobil yolları müasir standartlara cavab verən süni işıqlandırma sistemləri, qurğuları ilə təmin olunmalı, habelə yolların işıqlandırılmasında alternativ enerji mənbələrindən istifadə edilməli və onların yararlı vəziyyətdə saxlanması üçün mütəmadi şəkildə tədbirlər görülməlidir.

Ümumiyyətlə, işıqlandırma problemi həm sürücülərin işini çətinləşdirir, həm də piyadaların həyatını böyük risk altına atır. Binəqədi qəsəbəsi, 1-ci mədən ərazisindəki yolda ilk dəfə olaraq quraşdırılan işıqlandırma sistemi bəzi günlərdə məlum olmayan səbəblərdən işləmir. Yaxud Xırdalan dairəsi–Binəqədi magistralının son illər işıqlandırma sisteminə qoşulmasına baxmayaraq, işıq dirəklərindəki lampalar bir neçə aylıq fəaliyyətdən sonra bəzən günlərlə yanmır. Sürücülərin və piyadaların söhbətlərində də bu narahatlıq dilə gətirilir.

Yeri gəlmişkən, yol-nəqliyyat qəzaları əsasən, günün qaranlıq vaxtlarında baş verir. Adətən, belə qəzalara sürücünün sürət həddinə əməl etməməsi, təhlükəli manevrlərdən çəkinməməsi səbəb olsa da, küçələrin işıqlandırılmaması da təhlükəni reallaşdırır. İşıqlandırılan küçə və yollarda isə ən azı piyada yaxınlaşmaqda olan nəqliyyat vasitəsini, öz növbəsində, sürücü də yola çıxan maneəni, piyadanı görə bilir…

Ölkə Prezidenti çıxışlarının birində aidiyyəti qurumların rəhbərlərinə Bakı və paytaxtətrafı qəsəbələrin işıqlandırılması ilə bağlı konkret tapşırıqlar verib. Dövlət başçısı bütün yol və küçələrin işıqlandırılmasının zəruriliyini diqqətə çatdıraraq bu məsələnin yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynadığını vurğulayıb.

Yolların işıqlandırılması qəzaların müəyyən qədər azalmasını şərtləndirməklə bərabər, həm də cinayət hadisələrinin aradan qaldırılmasına əhəmiyyətli təsir göstərir. Başqa sözlə, işıqlandırma amili oğurluq və digər cinayət hallarının qarşısının alınmasına əsaslə zəmin yaradır.

**Ərşad Hüseynov,**
**nəqliyyat üzrə ekspert**

Küçə və prospektlərin işıqlandırılması yol hərəkətinin təhlükəsizliyində son dərəcə aktual və önəmli məsələdir. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycanda cinayət sayılan, yəni insanların dünyasını dəyişməsi, ağır və ya az ağır xəsarət almaları ilə bağlı yol-nəqliyyat hadisələrinin statistikasına nəzər salanda görürük ki, belə halların 60 faizindən çoxu məhz sutkanın qaranlıq və toranlıq vaxtlarında baş verir. Bu da, həmin vaxtlarda yaranan görünmə məhdudiyyəti ilə bağlıdır. Özü də nə qədər qəribə olsa, bu hadisələrin 85 faizi yaşayış məntəqələrinin: şəhər, qəsəbə və kəndlərimizin küçələrində baş verir. Belə faciəli hadisələr isə ən çox iri şəhərlərin küçələrində qeydə alınır. Bu da birbaşa küçələrin işıqlandırılmaması ilə bağlıdır.

Biz 10-15 ildir bunu xüsusi qabardırıq ki, ölkə ərazisindəki bütün avtomobil yolları, xüsusən də paytaxtın, rayon mərkəzlərinin, qəsəbə və kəndlərimizin küçələrinin normal şəkildə işıqlandırılması təmin edilməlidir. Yalnız belə olan təqdirdə cinayət sayılan ağır yol-nəqliyyat hadisələrinin, bəlkə də, 50 faizi baş verməyə bilər. Çünki işıqlandırma təmin edildikdə hərəkət iştirakçıları: sürücü, piyada, velosipedçi və yaxud da yol kənarında dayanan şəxs bir-birini qarşılıqlı olaraq görürlər. Bax, küçələrin işıqlandırılması bu baxımdan vacibdir. Məsələn, piyada yolla hərəkət edəndə qarşıdan bir cüt faranın ona tərəf hərəkət etdiyini görür. Özü də bu zaman onun üst-başı işıqlanır. Həmin anda elə düşünür ki, sürücü onu görür. Əslində belə deyil. Çünki bu zaman əks istiqamətdən həmin sürücü ilə üzbəüz digər bir nəqliyyat vasitəsi də hərəkətdə olur. Onun da bir cüt farası var. Arxadan gələn digər nəqliyyat vasitəsi də onun kimi. Belə olan təqdirdə çox qəribə bir işıq effekti, işıqlanma fonu yaranır. Öndəki gur işıqlar göz bəbəklərinin daralmasına səbəb olur. Buna uyğun olaraq piyada da çox qısa bir məsafəni görür. Sürücü isə qəflətən onun yoluna çıxan piyadanı yalnız 5-10 metrlik məsafədən hiss edə bilir. Belə məsafədə isə avtomobili saxlamaq mümkün olmadığından qəzalar baş verir.

Amma işıqlandırılmış küçə və prospektlərdə 200-300 metr uzaqda hərəkət edən adamı görmək mümkün olur. Bu zaman sürücü sürəti azaldır, piyadanın hərəkətini izləyə bilir. Göründüyü kimi, küçə işıqlarının çov böyük faydası var. Əfsuslar olsun ki, son zamanlar bizdə küçələrin işıqlandırılmasına, sanki, bir bəzək kimi baxırlar. Çoxları elə düşünür ki, bu, küçənin yaxşı görünməsi üçündür. Bu qətiyyən belə deyil. Küçələrin işıqlandırılması yol hərəkəti təhlükəsizliyinin bir nömrəli vacib məsələlərindəndir.

Düzdür, işıqlandırılmış küçələr estetik cəhətdən daha gözəl, daha cazibədar görünür. Amma bu, ilk növbədə, insanların həyat və sağlamlıqlarının qorunması üçün lazımdır. Yeri gəlmişkən, 2018-ci ilin dekabr ayında qəbul olunmuş yol hərəkətinin təhlükəsizliyinə dair Dövlət Proqramının layihəsini hazırlayan işçi qrupun tərkibində mən də təmsil olunmuşam. Həmin sənəddə xüsusi vurğulanır ki, yaşayış məntəqələrinin bütün küçə və prospektləri işıqlandırılmalıdır. Özü də şəhər, qəsəbə və kənd fərqi qoyulmadan.

Dünyada küçələrin işıqlandırılması ilə bağlı qəbul olunmuş beynəlxalq standartlar var. Həmin standartlara əsasən, ilk növbədə, avtomagistrallar işıqlandırılmalıdır. Ölkəmizdə də magistral avtomobil yollarının işıqlandırılmasana çox böyük ehtiyac var. Bu baxımdan Bakı-Qazax, Ələt-Astara, Bakı-Şamaxı,

Bakı-Rusiya sərhədi, eləcə də hərəkətin nisbətən az olduğu Yevlax-Zaqatala-Balakən magistral avtomagistrallarının, hətta yolayrıcılarının işıqlandırılması təmin edilməlidir.

Bir sözlə, işıqlandırma ona görə lazımdır ki, piyadalar, sürücülər və digər hərəkət iştirakçıları qarşılıqlı olaraq bir-birini görsünlər. Bundan ötrü də büdcədən vəsait ayrılmalıdır. Həmin vəsaitdən qənaətlə istifadə olunmalıdır. Bütün yolların daimi işıqlandırılması təmin olunmalıdır. Özü də bu iş təhlükəsiz şəraitdə, yolların işıqlandırması ilə bağlı mövcud beynəlxalq standartların tələblərinə uyğun şəkildə həyata keçirilməlidir.